UOT: 338.012:339.13.024
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.296

# MÜASİR DÖVRDƏ MİLLİ ENERJİ SEKTORUNDA LİBERAL BAZAR MODELİNİN FORMALAŞMASI PROBLEMLƏRİ

**NİCAT ƏBDÜRƏHMANOV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*
*E-mail: nicatabd@gmail.com*

Qlobal transformasiyalar şəraitində enerji problemlərinin kompleks və sistemli, həm də uzunmüddətli dövr üçün həll edilməsi hər bir ölkənin strateji hədəfləri sırasındadır. Etiraf etmək lazımdır ki, dünyanın əksər ölkələri bu vəzifənin öhdəsindən gəlməkdə ciddi problemlərlə üzləşirlər. Bunun bir səbəbi resursların ölkələr arasında qeyri-bərabər olmasıdırsa, digər mühüm bir səbəbi isə dövlətlərin milli enerji sektorunun inkişaf etdirilməsi siyasətləridir. Yəni qlobal transformasiyalar baxımından hər bir dövlətin enerji siyasətinin maksimum təkmilləşdirilməsi və dövrün tələbinə uyğun olaraq yenilənməsi vacib şərtlərdəndir.

Başqa bir önəmli məsələ enerji istehsalının artırılması və bununla bağlı qlobal yanaşmaların xeyli dəyişməsidir. Başqa sözlə, ənənəvi enerji istehsalı sahələrinin təkmilləşdirilməsi, qlobal ekoloji problemlər nöqteyi-nəzərindən daha üstün texnologiyalar əsasında istehsalın təşkili tələb olunur. Eyni zamanda, bazar iqtisadiyyatı mexanizmlərinin daha çox təkmilləşdirilməsi və milli enerji sektorunun inkişaf etdirilməsi üçün investisiyaların cəlbində özəl sektorun fəal iştirakının təmin olunması, bununla bağlı stimullaşdırıcı fəaliyyət mexanizmlərinin tətbiq edilməsi problemləri həll olunmalıdır.

Qeyd edək ki, müasir şəraitdə milli enerji sektorunda liberal bazar modelinin formalaşması problemləri aktuallığı ilə diqqət çəkir. Əksər dünya dövlətləri özlərinin enerji balansının dayanıqlı şəkildə təmin edilməsində müxtəlif enerji növlərinin istehsal infrastrukturunun yaradılması istiqamətində layihələr icra etməkdədirlər və bu baxımdan milli enerji sektorunun tədricən liberallaşdırılması məsələləri ön plana çıxır. Bu istiqamətlərdə olan baryerlərin aradan qaldırılması, milli enerji konsepsiyasının və müvafiq milli enerji strategiyasının formalaşdırılması, yaradılması problemləri müasir dövrümüzün əsas həllini gözləyən problemlərdəndir.

Azərbaycan keçmiş SSRİ respublikalarından biri kimi öz müstəqilliyini bərpa etdikdən sonra milli enerji sektorunun yenidən qurulmasına məcbur olmuşdur. Belə ki, iri energetika müəssisələrinin əsas fondları xeyli köhnəlmiş, həmçinin yeni texnologiyaların tətbiqi lazım gəlmişdir. Bunlarla bərabər, ölkənin enerji sektorunun əsasını təşkil edən neft sənayesi tarixinin ən ağır dövrünü yaşamışdır. 1990-cı illərin əvvəllərində neft hasilatı minimum səviyyədə olmuşdur, istehsalın təkmilləşdirilməsi, yeni quyuların qazılması üçün vəsait yox idi, əldə olunan gəlirlər isə çətinliklə əməkhaqqına çatırdı və çox vaxt əməkhaqqlarının verilməsi də gecikirdi. Güclü kadr axını var idi, ölkədə olan qeyri-sabitlik səbəbindən bir çox bacarıqlı və yüksək peşəkarlığa malik mütəxəssislər başqa ölkələrə üz tuturdular.

Məhz belə bir şəraitdə Azərbaycan xalqının xilaskarı olan Ulu Öndər Heydər Əliyevin bir çox sahələrdə olduğu kimi, milli enerji sektorunun inkişafında da mühüm xidmətlərini qeyd etməmək mümkün deyildir. Ulu Öndərin tarixi səyləri nəticəsində müstəqil Azərbaycan dövlətinin iqtisadi gücünün bərpa edilməsində neft sənayesinin lokomotiv statusu bərpa olundu. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı və nəticədə neft strategiyasının reallaşdırılmasına başlanıldı. Bunun sayəsində Azərbaycanın neft-qaz sənayesinin inkişafında yeni mərhələ başlandı və həmçinin regionda qlobal əhəmiyyətə malik olan enerji dəhlizləri ərsəyə gətirildi. Ulu Öndərin gördüyü tarixi işlər həm də elektroenergetika sənayesinin inkişafına ciddi təkan verdi. Məhz Heydər Əliyev tərəfindən milli elektrik enerjisi sisteminin yenidən və müasir texniki tələblərə uyğun şəkildə qurularaq Avropa standartları səviyyəsinə çatdırılması, daxili enerji tələbatının tam ödənilməsi və qonşu ölkələrə elektrik enerjisi satışı müstəqilliyin ilk illərində həlli vacib vəzifələr kimi qarşıya qoyulmuşdu. Bu istiqamətlərdə aparılan davamlı işlər nəticəsində "Yenikənd" SES, "Naxçıvan" İES, qaz turbin tipli "Şimal" İES və "Bakı" istilik Elektrik Mərkəzi istismara verildi. "Mingəçevir" SES-in yenidən qurulması, 330 kV-luq Ağcabədi, 110 kV-luq Bərdə yarımstansiyaların və 330 kV-luq "Azərbaycan" İES-Ağcabədi-İmişli EVX-nin inşası həyata keçirildi. Bütün bunlar müstəqil Azərbaycanı müasir dünyanın mühüm enerji mərkəzi kimi tanıdan çox əhəmiyyətli nailiyyətlərdir [1, s. 5]. Ümumilikdə əlavə edək ki, müstəqilliyin bərpası

dönəmində elektrik enerjisinin istehsalı 4 min MVt artırılıb, xüsusilə Sumqayıt Sənaye Mərkəzində istismara verilən 517 MVt-lıq elektrik stansiyası ən son texnologiyalara malikdir. Eyni zamanda, 36 yeni elektrik stansiyaları istismara verilmiş və ya əvvəllər mövcud olanlar bərpa edilmiş, nəticədə ölkədə elektrik stansiyalarının sayı 45-ə çatdırılmışdır. Sevindirici haldır ki, bu elektrik stansiyaları içərisində işğaldan azad olunmuş ərazilərdə bərpa olunan su elektrik stansiyalarının sayı artmaqdadır və bununla bağlı yeni layihələr işlənməkdədir. Ümumilikdə, bu ərazilər 2022-2026-cı illərdə yaşıl enerji zonası elan olunmuşdur və artıq fəaliyyət strategiyası formalaşdırılmışdır.

Qeyd edək ki, milli enerji sektorunun strukturunun təkmilləşdirilməsi və onun liberal bazar modelinə keçməsi üçün müasir texnologiyalar əsaslı elektrik enerji müəssisələri şəbəkəsinin yaradılması və bu proseslərdə özəl subyektlərin fəallığının təmin olunması müstəsna əhəmiyyət kəsb edir. Məlumdur ki, ölkəmiz artıq alternativ və bərpa edilən enerji infrastrukturunun yaradılması baxımından müəyyən hədəflərə malikdir və genişmiqyaslı layihələr icra edilməkdədir. Ölkənin energetika sektorunun modernizasiya edilməsi və islahatların aparılması istiqamətində siyasi qərarlar verilmiş və iqtisadi əsaslar formalaşdırılmışdır. Ölkə Prezidentinin 29 may 2019-cu il tarixli "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Sərəncamı bu baxımdan mühüm əhəmiyyət daşıyır. Belə ki, bu sənəddə müasir dövrdə ölkəmizin energetika sektorunun inkişaf istiqamətləri və əsas hədəfləri müəyyənləşdirilmiş və bu mühüm iqtisadiyyat sahəsində bazar iqtisadiyyatı şərtlərinə əsaslanan liberal bazar modelinə mərhələli şəkildə keçid məsələləri öz əksini tapmışdır. Bundan əlavə, elektroenergetika sahəsinin daha səmərəli fəaliyyət göstərməsi üçün özəl investisiyaların cəlb olunması prioritetlik səviyyəsinə qaldırılmışdır. Xüsusilə, bərpa olunan enerji resurslarından istifadənin daha çox təbliğ edilməsi, bu sahəyə özəl sektor subyektlərinin cəlb olunmasının intensivləşdirilməsi və stimullaşdırılması məsələləri vacib hesab edilmişdir. Nəhayət, ölkəmizdə mövcud enerji təchizatı sistemlərinin səmərəliliyinin yüksəldilməsi və istehlakçıların tələblərinin dövrün çağırışlarına uyğun şəkildə yerinə yetirilməsi məsələləri ön plana çəkilmişdir [2]. Son illərdə bu qeyd olunanlarla bağlı görünən tədbirlər nəticəsində ölkəmizdə enerji istehsalı strukturunda mühüm dəyişikliklər baş vermişdir və bir sıra özəl xarici şirkətlər bərpa olunan elektrik enerjisi infrastrukturuna ciddi sərmayələr yatırmışlar. Bunlar isə öz növbəsində milli enerji sektorunun imkanlarının artmasına və islahatların aparılmasına əsaslı zəmin yaratmaqdadır.

Hər bir dövlətin enerji təhlükəsizliyinin təmin edilməsi və enerji resurslarından istifadənin səmərəliliyinin artırılması olduqca vacibdir. Bu baxımdan Azərbaycanda ölkənin enerji sektorunun inkişaf etdirilməsi, daha məhsuldar fəaliyyət mühitinin yaradılması problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsinə ehtiyac vardır. Professor E.M.Hacızadə haqlı olaraq qeyd edir ki, müasir dünyada enerji təhlükəsizliyi yalnız istehlakın kəmiyyət təminatlığı ilə deyil, həm də onun keyfiyyəti və standartları ilə ölçülür... Elektroenergetika sistemində böyük həcmdə yenidənqurma və modernizasiyaya ehtiyac vardır. Enerji qənaətçiliyi və enerji effektivliyi məsələləri də həllini gözləməkdədir. Enerji resurslarının səmərəli istismarı, bölgüsü, istifadəsi və həm də başlıca olaraq artırılması, yetərliliklə gələcək nəsillərə transformasiyası çox mühüm və vacibdir [3, s.4]. Bu qeyd olunanlar nöqteyi-nəzərindən, bir sıra vacib problemlərin həll edilməsinin vacibliyi diqqət çəkir. Yaxın perspektivdə ölkəmizdə energetika sahəsində liberal bazar modelini formalaşdırmaq üçün əlverişli bazar şəraiti yaradılmalı, inhisarçılığın aradan qaldırılması üçün tədbirlər görülməli və ilk növbədə normativ-hüquqi baza gücləndirilməlidir. Bunlarla yanaşı, hesab edirik ki, ölkənin enerji təhlükəsizliyinin daha dayanıqlı olması üçün bu sahədə idarəetmə mexanizmləri yenilənməli, azad qiymətqoyma mexanizmləri formalaşdırılmalıdır. Eyni zamanda, alternativ və bərpa olunan enerji mənbələrindən daha məhsuldar istifadə edilməsi üzrə dövlət-özəl sektor əməkdaşlığı layihələri hazırlanmalı və həyata keçirilməlidir. Bütün bunlar son nəticədə ölkənin elektrik enerjisi balansında analoji enerji növlərinin payının artırılmasına imkan verəcəkdir. Unutmaq olmaz ki, Azərbaycan 2030-cu ildə özünün elektrik enerjisi balansının strukturunda bərpa və alternativ enerji resurslarının payını 30 %-dək qaldırmağı bir hədəf kimi götürmüşdür.

Hər bir dövlətin bazar iqtisadiyyatını dərinləşdirmək və bununla bərabər daha səmərəli fəaliyyət mühitini yaratmaq təcrübəsi və hədəfləri vardır. Bu baxımdan enerji sektorunun genişləndirilməsi,

onun strukturunun təkmilləşdirilməsi və bu sektorun müasir qlobal təhdidlərdən yaranan təhlükələrdən qorunması tədbirlərinə ehtiyac vardır. Belə ki, liberal enerji bazarında daxili və xarici amillərin təsirindən risklərin artması ehtimal olunandır və bu cür hallara qanunauyğun proses kimi baxılır. Digər tərəfdən, enerji təhlükəsizliyi həm fərdi dövlətlərin, həm də bütövlükdə dünya təhlükəsizliyinin vacib bir komponentidir. Enerji təhlükəsizliyinin təmin olunması üçün əlçatanlıq, yəni resursların mövcudluğu, müxtəliflik – bu halda isə mənbələrin və yanacaq növlərinin fərqli olması, çoxşaxəliliyi, texnoloji amillərin diqqətdə saxlanılması, başqa sözlə, yeni texnologiyaların daha fəal tətbiq edilməsi və enerji sisteminin səmərəliliyi xüsusi diqqət mərkəzində saxlanılmalıdır [4, s. 121]. Enerji təhlükəsizliyinin təmin olunmasında önəmli məsələlərdən biri ənənəvi, həm də tükənməkdə olan enerji resurslarından – neft və qaz xammallarının hasilatının tədricən azaldılması, əvəzində isə alternativ və bərpa olunan elektrik enerjisi istehsalı infrastrukturunun yaradılması, enerji resurslarının sabit mənbələrinin müəyyənləşdirilməsi və onlardan səmərəli rejimdə istifadə olunması tədbirlərinə ciddi ehtiyac vardır. Bunlarla yanaşı, belə bir məsələ daha çox narahatlıq doğurur ki, müasir qlobal təhlükələrin artdığı bir dövrdə enerji resurslarından daha səmərəli fəaliyyət modelləri əsasında istifadənin maliyyələşdirilməsi və bu istiqamətlərdə islahatların aparılması gecikir. Əgər Azərbaycanın misalında baxsaq, hələ də elektrik enerjisi infrastrukturu və idarə edilməsi əsasən dövlət müəssisələrinə və dövlət strukturlarına aiddir. Yerli şirkətlər, ümumiyyətlə, elektrik enerjisinin istehsalında, nəqlində, bölüşdürülməsində və istehlakçılara çatdırılmasında iştirak etmirlər. Dövlət strukturları səhmdar cəmiyyətlər və ya məhdud məsuliyyətli cəmiyyətlər formasında fəaliyyət göstərsələr də, onların səhmləri enerji bazarlarında maraq doğurmur və bu baxımdan özəl investisiyalar yoxdur. Əvvəldə qeyd etdiyimiz kimi, yalnız son illərdə alternativ və bərpa olunan elektrik enerjisi istehsalı infrastrukturuna bir sıra xarici şirkətlər tərəfindən investisiyalar yatırılmış və yönəldilməkdədir. İşğaldan azad olunmuş Cəbrayıl rayonunda günəş enerjisi infrastrukturunun yaradılmasında BP şirkətinin sərmayəsi əsas rol oynayır. Xızıda isə külək enerjisi istehsalı üçün müəssisənin tikilməsində Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti sərmayə yönəltmişdir. Fikrimizcə bütün bunlar ölkəmizdə müxtəlif enerji növlərinin istehsalı üçün infrastrukturun formalaşdırılmasına və perspektivdə ölkənin enerji balansının strukturunun şaxələndirilməsinə münbit şərait yaradacaqdır. Digər tərəfdən, alternativ enerji infrastrukturlarının inkişaf etdirilməsi Azərbaycanın effektiv ətraf mühit siyasətinin idarə edilməsinin həyata keçirilməsi ölkədə istər ənənəvi, istərsə də bərpa oluna bilinən enerji mənbələrindən istifadə üçün münbit şərait yarada bilər. Bərpa olunan enerji mənbələrinin inkişafı hökumət strategiyasının prioritet istiqamətidir. Lakin alternativ enerji mənbələrindən istifadənin müəyyən məhdudiyyətləri mövcuddur. Belə ki, ölkə kiçik hidro, günəş və külək enerjisindən istifadə sahəsində bir sıra irəliləyişlər əldə etsə də, müxtəlif alternativ enerji resurslarının geniş istifadəsini optimal səviyyədə təsdiqləmək üçün kifayət qədər dəlil yoxdur [5, s. 36]. Şübhəsiz bu problemlər istiqamətində daha konseptual yanaşmalar ortaya qoyulmalı, geniş şəkildə stimullaşdırıcı dövlət dəstəyi mexanizmləri hazırlanmalı və həyata keçirilməlidir. Eyni zamanda, əvvəldə qeyd etdiyimiz kimi idarəetmə mexanizmlərinin yenidən qurulmasına, azad bazar iqtisadiyyatı prinsiplərinə əsaslanmış rəqabət mühitinin yaradılmasına və rəqabət qabiliyyətli özəl energetika müəssisələrinin təşkilinə ehtiyac vardır.

Dünya təcrübəsində bir çox dövlətlər özlərinin enerji təhlükəsizliyini daha etibarlı şəkildə təmin etmək üçün enerji sektorunun maksimum liberallaşdırılmasına üstünlük vermişdir, yalnız müəyyən idarəetmə və tənzimləmə funksiyalarını mərkəzləşdirilmiş olaraq saxlamışlar [6, s. 193]. Digər tərəfdən, enerji təhlükəsizliyinin gücləndirilməsi, milli enerji sektorunun mövcud problemlərinin şəffaf şəkildə açıqlanması, həlli yollarının müəyyənləşdirilməsi, liberal enerji bazarının yaradılması istiqamətində səmərəli tədbirlərin görülməsi tələb olunur. Bu sırada mühüm məsələlərdən biri əlverişli liberal enerji bazar modelinin formalaşdırılması və onun inkişafının təmin edilməsidir [7]. Məsələn, dövlət nəzarətinin və idarəetmə sisteminin güclü olduğu Çində elektrik enerjisi istehsal edən müəssisələrin fəaliyyətinə dövlət nəzarəti ilə yanaşı, həm də kifayət qədər çoxşaxəli stimullaşdırıcı fəaliyyət və dəstək mexanizmləri tətbiq olunur [8, s. 593]. Yaxud, keçmiş postsovet respublikalarından biri olan Belarusda elektrik enerjisindən səmərəli istifadə edilməsi problemlərinə ciddi önəm verilir və qənaət rejiminin təkmilləşdirilməsi önəmli fəaliyyət istiqamətlərindən

sayılır [9, s. 2]. Bir sözlə, dünyanın əksər ölkələrində enerji təhlükəsizliyinin mövcud mexanizmlərinin təkmilləşdirilməsində, milli enerji sektorunun inkişafının intensivləşdirilməsində yeni mexanizmlərin işlənilməsi və tətbiqi əsas trendlər kimi qiymətləndirilə bilər. Başlıca məqsəd enerji sektorunun maksimum sürətli inkişafının təmin olunması və liberal bazar modeli əsaslı fəaliyyət üçün əlverişli şəraitin yaradılmasıdır [10, s. 1639].

Son illərdə Azərbaycanda enerji resurslarından istifadənin səmərəliliyinin artırılması və yaşıl iqtisadiyyata keçiddə yaşıl enerjinin rolunun yüksəldilməsi tədbirləri genişlənməkdədir. Ümumiyyətlə, enerji səmərəliliyinin yüksəldilməsinin inkar edilməz birbaşa və dolayı üstünlükləri mövcuddur. Bu üstünlüklər istər dünya miqyasında, istərsə də ayrı-ayrı ölkələrin sənaye siyasətində geniş yer almışdır. Enerji səmərəliliyi energetika siyasətində getdikcə yüksək mövqe əldə edir. Enerjidən səmərəli istifadə edən rəqabət qabiliyyətli sənaye istehsalının genişləndirilməsi xammallara qənaət rejimini şərtləndirir [11, s. 70]. Bu məsələlər həm də enerjidən səmərəli istifadə edilməsi istiqamətində daha rasional fəaliyyət rejimlərinin formalaşdırılması və enerji sisteminin inkişafının təmin edilməsidir.

Yaşıl iqtisadiyyata keçid məsələləri ilə bağlı Azərbaycanda çox işlər görülməlidir və bu tədbirlərin sırasında Azərbaycanda enerji sektorunun liberallaşdırılması, enerji subsidiyalarının azaldılması, əvəzində isə bazar iqtisadiyyatı mexanizmlərinin daha fəal şəkildə tətbiq edilməsi daha çox fərqlənirlər. Ölkədə aparılan subsidiya islahatları ümumi qiymət artımı riskini yaradır [12, s. 105]. Elektroenergetika sahəsinə dövlət tərəfindən investisiyaların yatırılması və subsidiyaların intensiv olaraq verilməsi, bu sahənin liberallaşdırılmasını ləngidən amillər kimi qiymətləndirilə bilər. Hesab edirik ki, dövlət strateji iqtisadiyyat sahəsi olan milli enerji sektorunun liberallaşdırılması istiqamətində düşünülmüş və uzunmüddətli dövrə hesablanmış addımlar atmalı və islahatlar aparmalıdır.

## Yekun

Beləliklə, qeyd olunanlardan belə bir nəticəyə gələ bilərik ki, müasir dövrdə Azərbaycanda milli enerji sektorunun liberal bazar modelinə keçidinin təmin edilməsi üçün mövcud olan problemlərin böyük bir hissəsi həll edilməmiş vəziyyətdədir və bunun üçün bir qrup davamlı tədbirlərin görülməsi tələb olunur:

– Ölkənin enerji sektoru və enerji nəzarəti mexanizmlərinin təkmilləşdirilməsinin hüquqi bazası yenilənməli, liberal enerji bazar modelinə keçməsinə imkan verən qanunlar qəbul edilməlidir;

– Dövlətin enerji siyasətinin maksimum təkmilləşdirilməsi proseslərində dövlət-özəl sektor əməkdaşlığının dəstəklənməsi mexanizmləri hazırlanmalı və daha fəal şəkildə tətbiq edilməlidir;

– Dünya təcrübəsindən yanaşmaqla, ölkədə liberal enerji bazar infrastrukturunun yaradılması və idarəetmə mexanizmlərinin formalaşdırılması prosesləri sürətləndirilməlidir və s.

**Açar sözlər:** *Azərbaycan, enerji sektoru, liberal bazar modeli, bərpa və alternativ enerji mənbələri, enerji resursları, effektiv enerji rejimləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Şahbazov, P. Milli enerji strategiyasinin yaradicisi. Azərbaycan. - 2018.- 8 may. -№ 103. - S. 5.- https://files.preslib.az/projects/heydaraliyev/articles/he0402.pdf.*

*2. Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 29 may 2019. https://e-qanun.az/framework/42550/.*

*3. Hacızadə, E.M. Enerji təhlükəsizliyi və enerji effektivliyinin yüksəldilməsi prioritetləri. 19.03.2020. https://hajizada.com/az/article-view/7/1076/.*

*4. Fətəliyev, T., Mansurova, Ş. Enerji sektorunda kibertəhlükəsizliyin təmin olunması məsələləri haqqında / "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri" IV respublika konfransı, 14 dekabr 2018-ci il. Bakı. – s.121-124.*

*5. Kərimli,Ə.İ., Ağayev, A.M. Azərbaycanda enerji sektorunun iqtisadi aspektləri və əhəmiyyəti // UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, – 2020, s. 30–40.*

*6. Howell S. Jia You! (Add Oil!) Chinese Energy Security Strategy // G. Luft, A. Korin (eds.). Energy Security Challenges for the 21st Century. A Reference Handbook. California: Praeger Security International, 2009. P. 191–218.*

*7. Johansson D.A. Energy Security Policies in EU-25 – the Expected Cost of Oil Supply Disruptions // Energy Policy. 2010. Vol. 38. P. 1241–1250.*

*8. Ren, B.S. "Enhancing China's energy security: determining influential factors and effective strate-*

*gic measures" Energy Conver Manage 2014, –p. 589–597.*

*9. Потоцкая, Н. Проблемы и перспективы развития энергетики Республики Беларусь. https://core.ac.uk/download/pdf/212953778.pdf.*

*10. Lefèvre, N. Measuring the Energy Security Implications of Fossil Fuel Resource Concentration // Energy Policy. 2010. Vol. 88. P. 1635–1644.*

*11. Məmmədov, B.Ə. Resurs səmərəliliyi və daha təmiz istehsal: sənaye müəssisələrində enerjidən səmərəli istifadə // Energetikanın problemləri, – Bakı: 2016. №4, s. 61-72.*

*12. Qasımlı, V.Ə. Yaşıl inkişaf: enerji səmərəliliyi və alternativ mənbələr. Bakı – 2014. – 144 s.*

## Проблемы формирования либеральной рыночной модели в национальном секторе энергетики в современном периоде

**РЕЗЮМЕ**

В статье рассматриваются проблемы формирования либеральной рыночной модели в отечественной энергетике в современную эпоху. Объяснены трудности создания либеральной рыночной модели. Приведены преимущества и недостатки монополии в энергетическом секторе. Проанализированы основы энергетической политики государства. Важность либерализации энергетического сектора перед лицом глобальных угроз обоснована. Рассмотрены современные мировые процессы либерализации энергетического сектора. Приведены основные направления и приоритеты государственной энергетической политики Азербайджана. Были затронуты проблемы создания инфраструктуры возобновляемых и альтернативных источников энергии. С учетом имеющихся ресурсов в ближайшей и долгосрочной перспективе выдвинуты предложения по приоритетным направлениям перехода национальной энергетики Азербайджана к либеральной рыночной модели.

**Ключевые слова:** *Азербайджан, энергетический сектор, либеральная рыночная модель, возобновляемые и альтернативные источники энергии, энергетические ресурсы, эффективные энергетические режимы.*

## Problems of Formation of a Liberal Market Model in the Domestic Energy Sector in the Modern Era

**SUMMARY**

The article examines the problems of forming a liberal market model in the domestic energy sector in the modern era. The difficulties of creating a liberal market model are explained. The advantages and disadvantages of a monopoly in the energy sector are given. The foundations of the state energy policy are analyzed. The importance of liberalizing the energy sector in the face of global threats is substantiated. Modern global processes of liberalization of the energy sector are considered. The main directions and priorities of the state energy policy of Azerbaijan are given. The problems of creating an infrastructure of renewable and alternative energy sources were touched upon. Taking into account the available resources in the near and long term, proposals are put forward on priority areas for the transition of the national energy sector of Azerbaijan to a liberal market model.

**Keywords:** *Azerbaijan, energy sector, liberal market model, renewable and alternative energy sources, energy resources, efficient energy regimes.*